Kim hər namazdan sonra otuz üç dəfə "subhənallah", otuz üç dəfə "əlhəmdulilləh", otuz üç dəfə "Allahu Əkbər" deyərsə və bunlar doxsan doqquz edir və yüzüncü dəfədə: "ləə iləhə illallah vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir" söyləyərsə, xətaları dəniz köpüyü qədər də olsa, bağışlanar

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Kim hər namazdan sonra otuz üç dəfə "subhənallah", otuz üç dəfə "əlhəmdulilləh", otuz üç dəfə "Allahu Əkbər" deyərsə və bunlar doxsan doqquz edir və yüzüncü dəfədə: "ləə iləhə illallah vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir" söyləyərsə, xətaları dəniz köpüyü qədər də olsa, bağışlanar".

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, kim fərz namazı bitdikdən sonra bunları desə: Otuz üç dəfə: "Subhənallah" və bu Allahı nöqsanlardan tənzih etməkdir. Otuz üç dəfə: "Əlhəmdulilləh" və bu Allahı sevərək və təzim edərək, Onu kamil sifətləri ilə tərifləməkdir. Otuz üç dəfə: " Allahu Əkbər" və bu Allahın hər şeydən böyük və əzəmətli olması deməkdir. Yüz rəqəminin tamamlanması : “Ləə iləhə illallah vəhdəhu ləə şərikə ləhu, ləhulmulku, və ləhulhəmdu və huvə alə kulli şeyin qadir" sözü ilədir ki, onun da mənası budur: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, təkdir və heç bir şəriki yoxdur, mülk yalnız Ona məxsusdur, yalnız O, məhəbbət və təzimlə bərabər həmd və tərifə layiqdir və O, hər şeyə qadirdir, heç nə Onu aciz buraxa bilməz". Və hər kim bunu desə, dəniz dalğalananda və hiddətlənəndə onun üstünə çıxan ağ köpük kimi onun günahları çox olsa da belə, silinər və bağışlanar.

http://www.sunnah.global/hadeeth/az/show/10948